***YENİ NƏŞRLƏR***

# OXUCUYA MİLLİ MƏNLİK ŞÜURU AŞILAYAN MONOQRAFİYAYA BİR NƏZƏR




Azərbaycanda pedaqoji fikrin qaynaqları çox qədimlərə gedib çıxsa da, elmi pedaqogikanın təşəkkülü və inkişafı XX yüzilliyin 20-ci illərindən başlayır. Bu illərdə Xəlil Fikrət, Mikayıl Rəhimli, Saleh Xəlilov, Seyfulla Şamilov və b. bu kimi pedaqoqlar Azərbaycanda elmi pedaqogikanın formalaşmasında xüsusi xidmətlər göstərmiş, Mehdi Mehdizadə, Əhməd Seyidov, Mərdan Muradxanov, Hüseyn Əhmədov, Yusif Talıbov, Nurəddin Kazımov, Əjdər Ağayev və b. pedaqogika elminə qiymətli əsərlər bəxş etmişlər. Bununla yanaşı, bu kimi söz sahibləri bu gün Azərbaycanda pedaqogika elminin aparıcı qüvvələri və sükançıları olan bir çox görkəmli alimlərin yetişməsində əvəzsiz xidmətlər göstərmişlər. Belə alimlərin bəhrələrindən biri də gözəl insan, görkəmli tədqiqatçı, pedaqogika üzrə elmlər doktoru, professor Şahin Tağıyevdir.

Elm inkişaf etdikcə yeni paradiqmalar, konsepsiyalar, innovasiyalar, investisiyalar, dövlət standartları, alternativ tədris planları və yeni tipli məktəblər yaranır. Təlim prosesinin intensiv və ekstensiv yolla təkmilləşdirilməsi təlim keyfiyyətinin yüksəldilməsində vasitəçi rol oynayır. Bu baxımdan Şahin Tağıyevin "Böyük maarifçi Mirzə Abbas Ələkbər oğlu Abbaszadənin pedaqoji görüşləri" adlı monoqrafiyası maraq doğurur, elmi-nəzəri və praktik əhəmiyyəti ilə seçilir.

Şahin Tağıyevin böyük maarifçi Mirzə Abbas Abbaszadənin pedaqoji görüşlərinin təhlilində Mirzə Abbas Abbaszadənin nəvəsi və nəticəsinin də (Mirzə Abbas Ənvər oğlu Abbaszadə və Mehdi Mirzə Abbas oğlu Abbaszadə) qələm payları vardır. Böyük maarifçi Mirzə Abbas Ələkbər oğlu Abbaszadənin ictimai, ideya-siyasi görüşləri və həmçinin, Azərbaycan Xalq Cümhuriyyəti dövründə pedaqoji və ictimai fəaliyyəti, ana dilinin tərəqqisi uğrunda mübarizədə onun rolu və fəaliyyəti, məktəbin demokratik əsaslarla qurulması uğrunda irəli sürdüyü ideyalar, müəllim və müəllim kadrları hazırlığı, müəllimlik fəaliyyətləri, həmçinin müəllim şəxsiyyəti kimi fikirləri və düşüncələri, folklor nümunələrindən istifadənin əhəmiyyəti, təsviri, təşəkkülü və inkişafı, "Birinci kitab. Əlifba", "İkinci kitab. Qiraət", "Şəriət dərsi" kimi dərsliklərində mənəvi-əxlaqi kamilliyə və insani davranışa çağırış, yaradıcılığında xalqa, vətənə, ailəyə və əməyə münasibət məsələlərinin çox böyük aktuallıq kəsb etdiyini zəngin mənbələr, tarixi qaynaqlar, faktlar və dəlillərlə əsaslandıran Şahin Tağıyev, nəvə və nəticələr öncə mövzunun tarixşünaslığına geniş yer ayırır, qarşıya qoyduğu məqsədə uyğun olaraq işçi fərziyyə müəyyənləşdirir, vəzifələri, metodları, nəzəri və praktik əhəmiyyəti səciyyələndirir və daha sonra müddəaları şərh edirlər. Təqdim olunan müddəalar elmi istiqamətinə, ümumiləşdirmə səviyyəsinə və inandırıcılığına görə diqqəti cəlb edir. Monoqrafiya 3 fəsil, 11 yarımfəsil, nəticə, elmi məqalələr və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. "Mirzə Abbas Abbaszadənin həyatı, dünyagörüşünün formalaşması və pedaqoji fəaliyyəti" kimi adlanan birinci fəsildə M.A. Abbaszadənin uşaqlıq illərindən ictimai-siyasi baxışlarını formalaşdıran mühitlə tanış oluruq. Qeyd olunur ki, Abbaszadə Gəncə mədrəsəsində 1892-ci ilədək dövrünün məşhur müdərrisləri sayılan Mirzə Xəlil Şeyxzamanov və Molla Hüseyn Pişnamazzadədən dərs almış, ərəb, fars və türk dillərinə dərindən yiyələnmişdir. Əsərdə qeyd olunur ki, "Mirzə Abbas nəstəliq xətti ilə gözəl yazmaq, xəttatlıq qabiliyyətinə malik ol-

duğundan ona mədrəsədəki əlyazma kitabların üzünü köçürməyi də həvalə edirdilər" (Bax: Böyük maarifçi Mirzə Abbas Ələkbər oğlu Abbaszadənin pedaqoji görüşləri. Bakı: Mütərcim, 2018, səh.18). Görkəmli pedaqoqun mədrəsə təhsilini başa vurduqdan sonra İran, İraq, Türkiyə, Gürcüstan kimi ölkələri səyahətə çıxması təbii ki, onun elmi dünyagörüşü ilə yanaşı, ictimai-siyasi görüşlərində də mühüm əhəmiyyət kəsb etmişdir. Göründüyü kimi, birinci fəsildə Abbaszadənin həyatını və pedaqoji fəaliyyətini öyrənirik. Həmçinin pedaqoji fikrin yaranması və inkişafı uğrunda aparılan mübarizədə tədqiqatçılar tərəfindən onu rolu müəyyənləşdirilmiş, problemlə bağlı mövcud elmi-metodik ədəbiyyat araşdırılmış, müqayisəli təhlillər aparılmış, elmi ədəbiyyata tənqidi münasibət bildirilmişdir. Qeyd olunur ki, 1894-cü ildən müəllimlik fəaliyyətinə başlayan Mirzə Abbas tədris proqramları və dərs kitabları tapılmadığından çətinliklərlə üzləşməli olmuşdur. Bu çətinlikləri aradan qaldırmaq üçün 1900-cü ildə "Əlifba", 1901-ci ildə isə "Şəriət dərsi" adlı kitablar hazırlayıb əlyazma şəkilində çap etdirmişdir. Bu yarımfəsildə həmmüəlliflər Abbaszadənin məktəbin və milli mətbuatın inkişafındakı fəaliyyətini müəyyənləşdirmiş, Azərbaycan dilində mətbuatın yaranmasını şərtləndirən ictimai-mədəni şəraiti səciyyələndirmiş, "Kəşkül", "Fikir", "Həyat", "İrşad", "Füyuzat", "Dəbistan", "Rəhbər" və "Molla Nəsrəddin" adı ilə nəşr olunan mətbuat orqanlarında təhsil-tərbiyə məsələlərinin qısa xülasəsini vermiş, Azərbaycanda demokratik maarifçi ideyaların inkişafında oynadığı rol ümumiləşdirmiş, məktəb və maarifin inkişafındakı xidmətləri, bu sahədə mürtəce qüvvələrlə mübarizəsi təhlilə cəlb edilmişdir.

Monoqrafiyanın ikinci fəsli "Mirzə Abbas Abbaszadənin elmi-pedaqoji və metodik fəaliyyəti, ana dilində və yeni üsullu dərsliklərin və tədris vəsaitləri yaradılmasında rolu" adlanır. XX əsrin əvvəllərində xalqın elmə, maarifə həvəsində bir canlanma müşayiət olunurdu. Mətbuat orqanlarının sayı durmadan artırdı. Oxucular yeni-yeni əsərlər gözləyirdi. Belə bir dövrdə yeni-yeni ideyaları xalqa vaxtında çatdırmaq vacib idi. Bunun üçün də kiçik həcmli əsərlərə ehtiyac artmışdı. Bununla belə, bu əsərlər günün ehtiyacı ilə yarandığından bəzən bəzən şeir və ya satirik şeir, təmsil, felyeton və ya publisistik səciyyəli olurdu. Əsəri oxuyan zaman görürük ki, belə zəruri ehtiyacı doldurmağa cəhd edənlərdən biri də Mirzə Abbas Abbaszadədir. XX əsrin əvvəlləri Azərbaycan ictimai fikir tarixində yeni mərhələdir. XX əsrin əvvəlləri həm də ədəbi-pedaqoji görüşlərin mübarizəsi ilə diqqəti cəlb edir. Yeni dövr pedaqoji fikir mübadiləsinə böyük bir ehtiyac yaratmışdı. Göründüyü kimi, mübahisəyə, müzakirəyə səbəb olan məsələlər çox idi. Bu kimi məsələlər Abbas Abbaszadəni düşündürmüş və maraqlandırmışdır. Sənətin həyata münasibəti, xəlqilik, folklor nümunələrindən istifadə yolları və s. XX əsr təhlilində və tənqidində öz həllini gözləyirdi. Bildiyimiz kimi, Mirzə Abbas Abbaszadənin dünyagörüşündən, hər qəzetin, hər jurnalın siyasi, ədəbi-pedaqoji mövqeyindən asılı olaraq maarifçi görüşlər öz həllini tapırdı. Başqa sözlə, bu məsələlərə cavab verərkən müəllifin, mətbuat orqanının ədəbi-pedaqoji-psixoloji mövqeyi öz-özlüyündə meydana çıxır.

Monoqrafiyada oxuyuruq ki, Abbas Abbaszadə elmi-pedaqoji və metodik fəaliyyəti, ana dilində və yeni üsullu dərsliklərin və tədris vəsaitləri yaradılmasında çox maraqlı fikirlər söyləmişdir. Pedaqoq əsərlərində zamanın çox vacib məsələlərini işıqlandırmış və dərslikləri isə xalqın siyasi şüurunu oyadan bir orqan kimi qiymətləndirmiş, tədris vəsaitlərinin yaradılmasını bütün müsəlman aləmini bürümüş qəflət və nadanlığa, mövhumatçılıq və elmsizliyə qarşı atəş açan yenilik nümunəsi kimi təqdir etmişdir. Rast gəldiyimiz bu kimi təhlillər onu göstərir ki, Şahin Tağıyev və digər müəlliflər bu fəsildə yalnız öz fikir və görüşlərini deyil, düşüncələri müqayisəli təhlillər əsasında aparılmış, ümumiləşdirilmiş, qruplaşdırılmış, düzgün diaqnostlaşdırma həyata keçirmişlər. Maarifçilik hərəkatı yalnız xalqın həyat tarixçəsi deyil, həm də bu dövrə qədərki problemlərin məcmusuna ümumi bir baxışdır. Maarifçilik hərəkatının baş vermə şəraitini, onun nəticələrini dəqiq üzə çıxarmaq, qiymətləndirmək və təhlil etməkdir. Bu mənada monoqrafiyada bu məsələlərə tədqiqatçılar xüsusi diqqət yetirmiş və belə nəticəyə gəlmişlər ki, maarifçi Mirzə Abbas Abbaszadə dünəni bugünləşdirir, dünənə bu günün çalarlarını əlavə edərək sabaha aparır və əbədiləşdirir.

Monoqrafiyada qeyd olunur ki, hər bir xalqın müəyyənliyi, özünəməxsusluğu onun dili

ilə öz əksini tapır. Bu mənada hər bir yazıçı, ədib və şairlərimiz ana dilinin saflığı uğrunda mübarizə aparmağı özünə borc bilməlidir. Xalqın yaşaması və mövcud olmasında əsas amil olan dili hər bir xalq ana südü kimi sevməli, onu yad təsirlərdən mühafizə etməyə, qoruyub saxlamağa çalışmalıdır. Azərbaycan maarifçiləri ana dilini yabançı sözlərdən, xarici təsirlərdən qorumağı, hər bir azərbaycanlının başa düşdüyü bir dildə yazmağı çox vacib bir məsələ hesab etmişlər. Xalqımızın böyük xoşbəxtliyidir ki, onun Mirzə Fətəli Axundzadə, Həsən bəy Zərdabi, Firidun bəy Köçərli, Məmməd Səid Ordubadi, Mirzə Ələkbər Sabir, Ömər Faiq Nemanzadə, Cəlil Məmmədquluzadə, Əli Nəzmi, Mirzə Əli Möcüz kimi maarifçiləri bu təhlükəni vaxtında hiss etmiş, doğma Azərbaycan dilini yad təsirlərdən qorumaq üçün var qüvvələri ilə mübarizə meydanına atılmış, bu dilin təmizliyi, saflığı uğrunda sözün əsl mənasında fədakarlıq göstərmişlər. II fəslin ən dəyərli cəhətlərindən biri də odur ki, böyük demokrat Abbas Abbaszadə də ana dilinin tədrisi uğrunda apardığı mübarizədə millətə milli mənlik şüuru aşılamaq, mənəvi dirilik dərsi keçmək üçün təlimin ana dilində aparılması ideyasını geniş surətdə təbliğ etmiş, ana dilinin tədrisini bütün təlim işinin mərkəzinə qoymuşdur. Abbas Abbaszadənin ana dili uğrunda mübarizəsi pedaqoji fikir tarixi üçün ona görə önəmlidir ki, o, öz doğma dilinin həm yaşaması, həm saflaşması, həm də zənginləşməsi uğrunda canından keçməyə belə hazır olmuşdur.

Tədqiqatçıların araşdırmalarından bu aydın olur ki, Abbas Abbaszadə məktəblərin demokratik əsaslar üzərində qurulması yollarını da axtarmış və bu problem ətrafında aparılan mübarizələrin əsas məqsədini - gənclərin təlim-tərbiyə işlərini yaxşılaşdırmaqda, köhnə molla məktəblərini yeni üsullu məktəblərlə əvəz etməkdə, təlim üsullarını, onun məzmununu dəyişdirməkdə, əhalinin savadlanmasına kömək etməkdə, bədən cəzasını məktəblərdə qadağan etməkdən və s. məsələlərdə görmüşdür. Tədqiqatçı alim Şahin Tağıyev və Mirzə Abbaszadənin nəvə və nəticəsi "Böyük maarifçi Mirzə Abbas Ələkbər oğlu Abbaszadənin pedaqoji görüşləri" adlı monoqrafiyalarında belə bir fikri tez-tez vurğulayırlar: Xalqın mədəniyyətinin inkişafını, şüurunun oyanmasını, müasir tədris ocaqlarının yaradılmasını və burada dərs deyən əsl xalq müəllimlərinin hazırlanmasını Mirzə Abbas Ələkbər oğlu Abbaszadənin təkidlə tələb etməsi monoqrafiyada təhlilə cəlb olunaraq öz əksini tapmışdır.

"M.A. Abbaszadənin dərslik və qiraət kitablarında folklor nümunələri" adlanan üçüncü fəsildə folklor nümunələrinin, mövqeyi, uşaqların milli ruhda təhsili, uşaq ədəbiyyatının təşəkkülü və inkişafı məsələlərinə toxunan tədqiqatçı Şahin Tağıyev, nəvə və nəticələr qeyd edirlər ki, M. Abbaszadə gənc nəslin tərbiyəsi, əxlaqı məsələlərinə həmişə ictimai və mədəni inkişaf baxımından yanaşmışdır. Ümumən, bu fəsil elmi-nəzəri və metodik baxımdan çox yaxşı səviyyədə işlənilmişdir və yüksək qiymətə layiqdir. Qeyd olunur ki, Abbaszadə öz dərsliklərində, qiraət kitablarında folklor nümunələrindən yerli-yerində istifadə etmişdir. Təkcə əlifba və ondan sonrakı oxu kitabına 20-yə yaxın atalar sözü, zərb-məsəl, tapmaca daxil etmişdir. Tapmacalara yer vermə səbəbinin izahında oxuyuruq ki, tapmaca adamın zehnini qidalandırır, təfəkkürünü inkişaf etdirir, cisim və hadisələrin əlamət və keyfiyyətlərini müqayisə etməyi və bir-birindən fərqləndirməyi öyrədir, ətraf aləmdə bilik və təsəvvürləri genişləndirir. Bununla yanaşı, qeyd edilir ki, Mirzə Abbas Ələkbər oğlu Abbaszadə bu mövzuda yazılan şeir, təmsil, tapmaca Azərbaycan xalq pedaqogikası nümunələrində köhnə, çürük təlim-tərbiyə üsullarını tənqid etmiş, uşaqların, gənc nəslin mütərəqqi üsullar əsasında tərbiyələndirilməsinə çalışmışlar. Uşaqları vətənə, xalqın adət və ənənələrinə və ya milli dəyərlərə məhəbbət ruhunda böyütmək, onlara mədəni vərdişlər, müsbət əxlaq normaları aşılamaq Mirzə Abbasın ən böyük və nəcib arzularından biri olduğu vurğulanır. Monoqrafiyada təlim prosesində şagirdlərdə folklor nümunələrindən istifadə etməklə əxlaqi biliklərin əxlaqi əqidələrə çevrilməsi, bu əqidələrin sisteminin yaradılması, sabit əxlaqi hisslər, əxlaqi keyfiyyətlər, əxlaqi adətlərin formalaşdırılması ilə bağlı diqqəti cəlb edən maraqlı nəzəri fikirlər, elmi ümumiləşdirmələr, zəngin təcrübi materiallar, müəllimlərə bir növü tövsiyə xarakterləri də vardır.

Monoqrafiyanın təlim və təhsil haqqında fikir və görüşlərindən belə qənaətə gəlinir ki, müəllim xalq yolunda fədakarlıqla çalışmalıdır,

şagird şəxsiyyətini formalaşdırmaq üçün dərsdə bütün didaktik prinsip və qaydalar optimal nisbətdə həyata keçirilməlidir, şagirdlərin maraq, meyl, qabiliyyətləri və tələbatları nəzərə alınmaqla onların idrakı fəaliyyəti üçün lazımi şərait yaradılmalıdır, şagirdlərin nail olduqları inkişaf səviyyəsinə istinad edilməlidir və nəhayət, hər bir dərs diqqətlə diaqnozlaşdırılmalı, proqnozlaşdırılmalı, layihələndirilməli və planlaşdırılmalıdır. Şagirdlərdə hər bir dərsin tədrisi zamanı dərsin tərbiyəedici imkanları, nail olunacaq real tərbiyə məqsədləri müəyyənləşdirilməlidir. Milli və dünyəvi bilik verən dərsliklərin məqsəd və məzmunundan irəli gələn tərbiyə vəzifələri qoyulmalı və bu şagird şəxsiyyətini formalaşdırmaqla üzvi surətdə əlaqələndirilməlidir.

Müəlliflərin gəldiyi elmi qənaətlərlə biz də şərikik ki, fənlə bağlı keçirilən hər bir dərs tərbiyəedici, təhsilverici və inkişafetdirici funksiyaları yerinə yetirməlidir. Ancaq belə olan halda şagirdlərdə məktəbə rəğbət oyatmaq, müəllim-şagird münasibətlərini formalaşdırmaq olar. Unutmaq olmaz ki, təlim, tərbiyə və inkişaf arasında üzvi əlaqə var və onlar bir-birinə qarşılıqlı təsir göstərir. Orta əsr Şərq təsəvvürlərinə görə, tərbiyə verməyən bilik odunsuz ocağa bənzəyir, bilik verməyən tərbiyə isə bədənsiz ruha oxşayır. Fəsildə inandırıcı arqumentlərlə sübut olunur ki, Mirzə Abbas Ələkbər oğlu Abbaszadənin yaradıcılığında məktəb və maarif, tərbiyə məsələlərinin tədqiqinə hələ də zəruri ehtiyac vardır.

Göründüyü kimi, monoqrafiyada ciddi elmi-nəzəri ümumiləşdirmələr, uzunmüddətli elmi araşdırmalar və tədqiqatların köməyi ilə sübut edilmişdir ki, Azərbaycan məktəb və pedaqoji fikrinin inkişafı tarixində böyük maarifçi Mirzə Abbas Ələkbər oğlu Abbaszadənin pedaqoji görüşləri maarifçilik hərəkatı mühüm rol oynayır. Tədqiqatçılar qarşılarına qoyduğu məqsədə nail olmuşlar. Mirzə Abbas Ələkbər oğlu Abbaszadənin maarifçilik sahəsində yaratdığı pedaqoji irsi, maarifçilik ideyalarının tərbiyəvi imkanlarının öyrənilməsinə xidmət edən müxtəliftipli şeir, mənzum hekayə, təmsil və bu kimi əsərlərin forma, məzmun, üsul və yollarını elmi təhlillərlə dəyərləndirmiş, Azərbaycan məktəb və pedaqoji fikrində cərəyan etmiş mənəvi-əsasların dərki problemini tam olaraq müəyyən edərək işin sistemini qurmuş, mükəmməl nəzəri konsepsiya hazırlanmışlar. Tədqiqatçılar təqdim etdiyi müddəaları aydın təfəkkür, məntiqi mühakimə, səlis elmi fikirlərlə ifadə etmiş, problemlə bağlı lazımi elmi-pedaqoji ədəbiyyatı təhlil edərək ümumiləşdirmişlər. Şahin Tağıyevin müştərək şəkildə gəldiyi nəticələr, elmi qənaətlər, irəli sürdüyu təkliflər pedaqogika tarixini zənginləşdirmək baxımından maraq doğurmaqla yanaşı, həm də nəzəriyyə baxımından yüksək əhəmiyyətə malikdir.

Sonda, görkəmli professor Şahin Tağıyevə və müştərəkçiləri Mirzə Abbas Ənvər oğlu Abbaszadəyə və Mehdi Mirzə Abbas oğlu Abbaszadəyə elmi-pedaqoji fəaliyyətlərində yeni-yeni uğurlar arzulayırıq.

**Kamal CAMALOV**
*Naxçıvan Müəllimlər İnstitutunun tədris*
*və tərbiyə işləri üzrə prorektoru*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Respublikasının əməkdar müəllimi*